# Prezident İlham Əliyevin hərəkətə keçmək mesajı

## və yaxud Ermənistana, dünya erməniliyinə və ermənipərəstlərə növbəti xəbərdarlıq

**Azərbaycan–Ermənistan münasibətlərindəki gərginlik beynəlxalq münasibətlərin Cənubi Qafqaz müstəvisini müəyyənləşdirən başlıca faktor olaraq qalmaqdadır. Mövcud xüsusda bir sıra məqamlara toxunmaq, onlar barədə fikir bildirmək mümkündür. Ən başlıca məqam isə Ermənistanın, yumşaq desək, qərarsızlığıdır və bu qərarsızlığı yalnız ölkənin baş naziri Nikol Paşinyanın xarakterindəki siyasətçi zəifliyi ilə əlaqələndirmək doğru olmaz.**

Əlbəttə, Paşinyanın aqressiv, idarəolunmaz hala gəlmiş Sarkisyan–Koçaryan sisteminin ideoloji qalığı sayılan daxili auditoriyaya hesablanmış gedişləri hər kəsə məlumdur. O gedişlər ki, hazırkı sülh prosesinin gerçəkləşməsinə, real fazaya daxil olmasına ciddi maneçilik törətməkdədir. Amma məsələ yalnız Paşinyanlıq deyil. Ermənistan liderinin məsxərə predmetinə çevrilmiş obrazı əslində aysberqin görünən tərəfidir. Azərbaycan Prezidenti cənab İlham Əliyev əbəs yerə bildirmir: “Qoymayacağıq ki, bir daha düşmən başını qaldırsın, qoymayacağıq ki, bir daha bizim üçün təhdid yaratsın. Əgər bunu görsək, dərhal hərəkətə keçəcəyik”.

Deməli, Azərbaycan və Ermənistan arasındakı danışıqlar prosesinin qlobal oyunçuları da iş başındadır və dövlətimizin başçısının bildirdikləri də Paşinyandan çox, məhz onlara cavabdır. O qlobal oyunçuların istəkləri nədir? Daha çox bunun üzərində dayanaraq fikrimizə aydınlıq gətirməyə çalışacağıq. Eyni zamanda hazırkı dövrdə Azərbaycana milli səviyyədə dirənişin, daha mütəşəkkil davranışın vacibliyini əsaslandırmağa çalışacağıq. Cənab İlham Əliyev də milli birlik və vəhdətin indiki zaman kəsiyi üçün xüsusən müstəsna əhəmiyyət daşıdığını vurğulayır.

***(ardı 7-ci səhifədə)***

# Prezident İlham Əliyevin hərəkətə keçmək mesajı



(əvvəli 1-ci səhifədə)

Azərbaycan 44 günlük müharibədə yalnız işğalçı Ermənistan deyil, bütövlükdə dünya erməniliyi üzərində qələbə qazandı. Ölkəmiz Cənubi Qafqazla bağlı çoxəsrlik erməni planını pozdu. Elə bir planı ki, onda yaşadığımız coğrafiyada Azərbaycan adlı dövlətin mövcudluğu nəinki nəzərdən keçirilmirdi, hətta ötən əsrin əvvəllərindəki erməni qətliamlarını nəzərə alsaq, müsəlman-türk varlığı şübhə altındaydı. Azərbaycanlılara qarşı diskriminasiya siyasəti kimi məkrli planlar sabiq sovetlər birliyi dönəmində də həyata keçirilmişdi. Erməni millətçiləri bəzən istəklərinə nail olmuşdular da. Azərbaycanda sovet hakimiyyətinin qurulmasından, habelə SSRİ-nin formalaşmasından sonra dədə-baba torpaqlarımızın Ermənistana peşkəş edilməsi faktdır.

Ancaq 1969-cu ildə ulu öndər Heydər Əliyev Azərbaycana rəhbərliyə başladıqdan sonra ermənilərin və onların Kremldəki havadarlarının niyyətləri puça çıxmağa başladı. Müstəqilliyi əldə etməyimizlə Birinci Qarabağ müharibəsindəki uğursuzluğumuz da, ölkəmizin sürətli inkişaf yoluna qədəm qoyması da hər birimizin yaxşı xatirindədir. Ancaq Heydər Əliyevin bir müddət hakimiyyətdən uzaq düşməsi erməni planlarının gerçəkləşməsi baxımından əlverişli zəmin yaratdı. Bu planların icrası nəticəsində 1991–1993-cü illərdə ərazimizin 20 faizini itirdik. Ulu öndərin hakimiyyətə yenidən qayıdışından sonra keçən illər əslində böyük hesabla dünya erməniliyinin ziyanına işləmiş illərdir. Bizi torpaq itkisinə dözmək məcburiyyətində qoyan, səbirli davranmağı, məqamı gözləməyi öyrədən çətin və məhrumiyyətli illəri yaşadıq. Nəhayət zəfərimizə qovuşduq.

Bəli, hazırda Qarabağ ətrafında baş verənlər, eləcə də Azərbaycan–Ermənistan dövlət sərhədində yaşananlar yalnız Ermənistan Respublikasının deyil, bütövlükdə dünya erməniliyinin 44 günlük müharibə ilə itirdiyinin bərpasına yönəlmiş cəhdidir. Bu dolaşıq labirintdə Nikol Paşinyan hansı ampluadadır, işin əsl maraqlı tərəfi budur.

Baxın, Paşinyan 2018-ci ildə hakimiyyətə gəldi və bu, demokratiyanın təntənəsi şəklində təqdim edildi. Əslində, Qərbin Ermənistanı Rusiyanın çəngindən qurtarmaq oyunu məntiqi nəticə vermişdi. Ancaq sual yaranır: Qərb Ermənistanı dünya erməniliyinin çəngindən qurtara bildi? Birmənalı şəkildə deyə bilərik ki, bu, baş vermədi. Əslində, Qərb heç bunu düşünmədi də. Nəticədə, demokratik qiyafəyə bürünmüş Paşinyan Qarabağ məsələsinə münasibətdə, hətta özündən əvvəlki Sarkisyan və Koçaryandan da sərt mövqe tutmağa başladı. O, Şuşada “inauqurasiya”, Cıdır düzündə şərab içib rəqs etməklə Azərbaycanı qıcıqlandıracaq hərəkətlərə yol verdi.

Paşinyanın davranışları, heç şübhəsiz, dünya erməniliyinin istəklərinin ifadəsi, sifarişi idi. Yəni dünya erməniliyi Qərbdəki əlaltılarına arxalanaraq uzun illərdir davam edən nizamlama prosesindən üz döndərdi. Erməni baş nazir isə ən böyük siyasi səhvini etdi. Görünür, xaricdəki ermənilərin onu hakimiyyətə gətirənlərlə əlbirliyinin müsbət nəticələr verə biləcəyinə, demokratın həm də triumfatora çevrilməsinin mümkünlüyünə inandı. Düşündü ki, ikincilər demokratiyanı daha vacib məsələ ilə bağlı müdafiə etmək əzmini də göstərəcəklər.

Beləliklə, Paşinyan, əslində, onu hakimiyyətə gətirənlərin deyil, onu hakimiyyətə gətirənlərlə əlbir olanların planına qoşuldu. Qərbin Azərbaycanla hərbi münaqişədə göstərəcəyi dəstəyə ümüd etdi. Dəstək oldu, amma güc yetmədi və Ermənistan ağır, rüsvayçı məğlubiyyətlə üzləşdi. Nə Paşinyan, nə də xaricdəki erməni lobbisi və diaspor təşkilatları fəlakəti öncədən görə bilmədilər. Onlar Azərbaycan Prezidenti cənab İlham Əliyevin Qarabağ məsələsindəki prinsipiallığını, ümummilli lider Heydər Əliyevin müəyyənləşdirdiyi uzaqgörən siyasi xəttin müqəddəs hədəfə – ərazi bütövlüyümüzün bərpasına doğru gedən yoldakı qətiyyətini duymağı bacarmadılar, illərdir yaratdıqları mifin sabun köpüyü mahiyyətini hiss etməyəcək qədər iflic duruma düşdüklərinin fərqinə belə varmadılar.

***

Dünya erməniliyinin ixtiyarına qalsa, Paşinyan bir dəqiqə belə hakimiyyətdə qalmamalıdır. Ancaq Qərb Ermənistanı yenidən Rusiyaya vermək istəmədiyindən, itirilmişlərin bərpası avantürasına onunla getmək məcburiyyətindədir. Yəni dünya erməniliyi Paşinyana dözməlidir. Hər bir halda hakimiyyətdə qalmaq yolu tutan Nikol isə üzdə bir cür, arxada başqa cür davranmaqdadır. Heç şübhəsiz, onu ayıltmaq lazımdır. Yalnız onu deyil, qisas hissi ilə yaşayan hər bir ermənini. Bu işi Azərbaycan Ordusu Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə çox böyük məharətlə reallaşdırmaqdadır. Ancaq Azərbaycan cəmiyyətinin də, ziyalı mühitinin də orduya, onun timsalında dövlətimizə dəstəyinin davamlılığı mütləqdir.

44 günlük müharibə dönəmində xalq-hakimiyyət, xalq-dövlət birliyi nə qədər möhkəm idisə, indi daha möhkəm olmalıdır. Nəzərə almalıyıq ki, bu birlik həm də dövlət müstəqilliyimizi qorumaq əzmimizin ən böyük nümayişidir. O müstəqilliyin ki, mövcudluğu bizə bir millət olaraq hava və su kimi vacibdir. Nəzərə alaq ki, Ermənistanın Qarabağ avantürasının mahiyyəti həm də Qafqaz coğrafiyasına Azərbaycan adlı məmləkətin yox olmasını hədəf seçmişdi. Biz nəinki Vətən müharibəsindəki əzmimizlə, eləcə də ona qədər yaşanmış illərin hər birində göstərdiyimiz dəyanətlə bir çox məkrli planları pozduq. Bundan sonra da pozmalıyıq.

Bəli, bundan sonra daha qətiyyətli davranmalıyıq. Düşünməliyik ki, bu gün dünya erməniliyi, Ermənistan Respublikası yuxarıda söylədiyimiz kimi, özünün işğalçı mahiyyətinə sadiqdir. Erməni xislətini, çürük mahiyyətini hər kəsdən, hamıdan daha yaxşı görən və duyan isə Azərbaycan Prezidenti cənab İlham Əliyevdir: “Bu gün şəhidlərimizin əziz xatirəsini yad edərək, bir daha hər birimiz özünə söz verməlidir, vəd verməlidir, and içməlidir ki, biz müstəqilliyimizin keşiyində əbədi duracağıq, biz ərazi bütövlüyümüzün keşiyində əbədi duracağıq...”

Bəli, dövlət başçımız müharibə günlərində, ondan sonra da vurğulayırdı ki, heç bir qüvvə bizi yolumuzdan döndərə bilməyəcəkdir. Gördüyümüz kimi, döndərə bilmədi də. Ancaq yuxarıda söylədiyimiz kimi, arxayınlaşmamalı, xalq olaraq əvvəl nümayiş etdirdiyimiz qətiyyətdən daha güclü qətiyyət, əzm və iradə göstərməliyik. Nəzərə almalıyıq ki, Cənubi Qafqazda sülh şəraitinin hökm sürməsi, bölgə xalqlarının əmin-amanlıq mühitində yaşamaları Azərbaycanın güclü dövlət kimi varlığından asılıdır. Bölgə dünya erməniliyinin, onun xaricdəki havadarlarının qlobal məqsəd və mənafe oyunlarının insan taleləri üzərindəki təcrübə meydanına çevrilməməlidir. Buna yol verməmək Azərbaycan xalqı olaraq bizim müqəddəs missiyamızdır. Bu missiya torpaqlarımızın azadlığı uğrunda canından keçmiş övladlarımızın ruhuna ehtiramımızdır. Məhz buna görə dövlət başçımızın vurğuladığı kimi, özümüzə söz verməliyik, and içməliyik.

Ümumən, cənab İlham Əliyevin fikirləri Azərbaycan dövlətinin Qarabağ davasındakı, torpaqlarımızın ərazi bütövlüyü məsələsindəki prinsipiallığının əminliklə vurğulanması, mövcud xüsusdakı hər hansı kompromisin, güzəştin yolverilməzliyinin qətiyyətli şəkildə bəyan edilməsidir. Ölkəmizin başçısı onu da xüsusi bildirir ki, Azərbaycan Ermənistan təhdidçi mahiyyətinin yenidən hər hansı formada özünü göstərməsinə imkan tanımayacaqdır. Əslində, Azərbaycan Prezidentinin bu fikirləri Azərbaycan və Ermənistan arasındakı danışıqlar prosesinin indiki fazasında süni gərginlik yaratmaq, siyasi manevrlərə baş vurmaq, yuxarıda da bildirdiyimiz kimi, məğlub Ermənistanı üçün sərfəli şərtlər formalaşdırmaq istəyənlərə qarşı prinsipial cavabdır. Bu cavab, eyni zamanda ermənilərin Qarabağ avantürasının heç bir halda bundan sonrakı danışıqlar masasına gətirilməyəcəyinin təsdiqidir.

**Əflatun AMAŞOV,**
**“Xalq qəzeti”nin baş redaktoru**